# MasterFinish® 251 P

## Bitki yağı emulsiya əsaslı, estetik səth üçün istifadə olunan qəlib ayırıcı

### MATERİALIN TƏQDİMATI

**MasterFinish® 251 P** – bitki yağı emulsiya əsaslı, estetik səthlər əldə etmək üçün istifadə olunan, şaquli və üfüqi tətbiq işləri üçün münasib olan, hər növ qəlib sistemində tətbiq oluna bilən qəlib yağıdır.

### TƏTBİQ SAHƏSİ:

- Taxta, faner və polad qəlib sistemlərində.
- Yığılma konstruksiyalarda, xüsusi layi-hələr və dekorativ beton işlərində.
- Ağ və rəngli beton işlərində.

### ÜSTÜNLÜKLƏRİ

- Qəlib və beton arasında yapışmanı azaldaraq, qəlibin asanlıqla çıxarılmasını və qəlibin təmizliyini təmin edir.
- Beton səthində əmələ gələn dəlikləri və səth defektlərini əhəmiyyətli dərəcədə azaldır, estetik səth əldə olunmasını təmin edir.
- Qəlibin istifadə müddətini artırır.
- Beton səthində ləkə və ya rəng müxtəlifliyi əmələ gətirmir.
- Qəlibin üzərində yarana biləcək korroziya təsirini azaldır.
- Buxar istiliyinə uyğundur.
- Ətraf mühit və işçilərin sağlamlığı üçün münasibdir.

### TEXNİKİ XÜSUSİYYƏTLƏRİ

| | |
|---|---|
| Materialın strukturu | Bitki yağlı emulsiya əsaslı |
| Rəngi | Ağ maye |
| Sıxlıq | 0,95-0,96 kq/litr |
| Qatılığı | Fırça qatılığı |
| pH dəyəri | 6,5 – 7,5 |

Yuxarıdakı parametrlər +23$^{0}$C-də və 50% nisbi rütubət üçün verilmişdir.

### SƏTHLƏRİN HAZIRLANMASI

Qəlib yağı istifadə olunmadan əvvəl, qəliblər beton qırıntılarından, taxta və dəmir hissəciklərdən, qar və buzdan yaxşı təmizlənməlidirlər. Yağ, qəlibin bütün səthini əhatə edəcək şəkildə səthə sıxılaraq, rolik və ya fırça ilə çəkilə bilər. Qəlibə çəkilən normadan artıq yağın beton səthini korlamaması üçün təmizlənməlidir.
Yağın sıxılması prosesində, ucluq ilə qəlib səthi arasında məsafə 50 – 100 sm, sıxılma təzyiqi isə ən azı 5 – 6 bar olmalıdır.

### QABLAŞDIRMA

30 kq-lıq bidonlarda.
210 kq-lıq çəlləklərdə.
1000 kq-lıq sisternlərdə.

### TƏTBİQ QAYDASI

Qəlib yağı istifadə olunmadan əvvəl, qəliblər beton qırıntılarından, taxta və dəmir hissəciklərdən, qar və buzdan yaxşı təmizlənməlidirlər. Yağ, qəlibin bütün səthini əhatə edəcək şəkildə səthə sıxılaraq, rolik və ya fırça ilə çəkilə bilər. Qəlibə çəkilən normadan artıq yağın beton səthini korlamaması üçün təmizlənməlidir.
Yağın sıxılması prosesində, ucluq ilə qəlib səthi arasında məsafə 50 – 100 sm, sıxılma təzyiqi isə ən azı 5 – 6 bar olmalıdır.

### SƏRFİYYAT

Qəlibin növündən asılı olaraq dəyişməklə birlikdə, 1 litr **MasterFinish® 251 P** rolik və ya fırça ilə çəkildiyində təxminən 30 m$^2$, 5-6 bar təzyiqli nasos vasitəsilə ucluqdan sıxıldıqda təxminən 70 m$^2$ qəlib səthini yağlamaq mümkündür.

# MasterFinish® 251 P

## Bitki yağı emulsiya əsaslı, estetik səth üçün istifadə olunan qəlib ayırıcı

### AŞAĞIDAKILARA DİQQƏT YETİRİLMƏLİ

- **MasterFinish® 251 P** yağının**,** $0^0$C-dən aşağı temperaturlarda və güclü yağışda tətbiq olunması tövsiyə olunmur.
- Qəlibə çəkildikdən sonra qəlib səthindəki ağ maye rəngi, rəngsizləşənə qədər qəlibə beton tökülməsi tövsiyə olunmur.

### SAXLAMA MÜDDƏTİ

Normal saxlama şəraitində, istehsal edildiyi gündən 12 ay təşkil edir. Acılmış qablaşdırmanın qapağı yenidən kip bağlanarsa, onda materialı butun saxlama müddətində istifadə etmək olar.

### SAXLAMA QAYDASI

Məhsulun donmayacağı bir mühitdə saxlanılması tövsiyə olunur. Qısa müddətli saxlanmalarda maksimum 3 rəf üst-üstə qoyulmalı və "ilk daxil olan ilk çıxar" prinsipi ilə daşınma həyata keçirilməlidir. Uzun müddətli saxlanmalarda isə rəflər üst-üstə qoyulmamalıdır.

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır.
**"Master Builders Solutions Azerbaijan" MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır.
Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **"Master Builders Solutions Azerbaijan" MMC** məsuliyyət daşımır.
Hazırkı texniki sənəd başqa yeni sənədin dərc olunduğu vaxta qədər etibarlıdır. 01.11.2020

**"Master Builders Solutions Azerbaijan" MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Baş ofis** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az